**Allah ondan insanı - insanlığı, kişini - Kişiliyi səciyyələndirən üstün xüsusiyyətlərdən heç birini əsirgəməmişdi. Elxan Məmmədlini yaxından tanıyanlar, onu sağlığında bir insan materialı kimi tədqiq edən elmi ictimaiyyət nümayəndələri təvazökarlığının altını cızır, şöhrətpərəstlikdən uzaq olmasını, hər xırda uğurdan qürrələnmədiyini vurğulayırdılar. Müşahidə etdiklərini deyirdilər, onun olduğu saz-söz məclislərində aşıqlar öz çalğı və oxumalarına xüsusi həssaslıqla diqqət yetirirlər.**

Təsdiqləyirdilər ki, ədəbi-bədii məclislərdə çıxış edərkən sanki dinləyiciləri ovsunlayırdı. Onu haqlı olaraq ziyalılarımız arasında özünün azərbaycançılığı, vətənpərvərliyi, milli ruhu, milli ideyası, alicənablığı, insanpərvərliyi, əxlaqi-etik görüşlərinə və ümumi dünyagörüşünə görə hamının sevimlisinə çevrilən ən yaxşı eloğlulardan və həmkarlardan biri, hətta birincisi kimi qələmə verirdilər. Duruşunda, yerişində, cah-cəlallı söz-söhbətində bir dastan tamlığı, bütövlük və yetkinlik urvatı görürdülər. Özünün göstərib. Elxan müəllim uzun illərdən bəri respublika televiziya və radio vasitəsilə aşıq sənətinə dair silsilə verilişlər hazırlayıb, aşıqsevərlərə ərməğan edib. Bu verilişlər demək olar ki, bütün Azərbaycan aşıqlarının saz, söz ustalarının həyat və yaradıcılığını özündə əks etdirən qiymətli audio-video sənədləridir. Hörmətli alim əsl milli qeyrət göstərərək təmənnasız olaraq bu qiymətli sənət nümunələrini



larımın 2017-ci ilin nəşri olan IV cildində yer alan, Elxan Məmmədliyə həsr etdiyim "Saz ömür və dadından doyulmayan saz ömrü yaşa, əmioğlu!" adlı oçerkimdə Elxan əmioğlumun mərhumə anası Fatma xaladan bir sitat gətirmişəm: "Hər söhbətində mənə deyərdi ki, atan Eyvaz Məmmədov Hüseynqulu əminin sıxıntılı günlərində həmişə tərəzinin Hüseynqulu müəllim olan gözündə olardı". Sonrakı sətirlərdə Elxana xitabən davam etmişəm: " Hörmətli bükülməz biləkli pələng əmioğlu! Bu fikrə şərh vermək çətindi. Özümüzü biləndən bu fikrin üstündə köklənmişik, bir-birimizə arxa-dayaq olmuşuq. Bundan belə də Allah verən ömrü beləcə, şərəflə və şərəfimizi qoruya-qoruya yaşamalıyıq".

Orta məktəb illərində də, ali məktəbdə oxuduğum dövrdə də məndən bir neçə yaş böyük, seçdiyim Bakı Dövlət Universitetinin filologiya fakültəsinin məzunu olan əmim oğlundan gördüyüm diqqət və qaytı ölçüyəgəlməzdir desəm, yanılmaram. Demək olar, hər gün, bəzən hətta gündə iki dəfə zəngləşib hal-əhval tuturduq.

# El üçün yaşayan, el üçün yanan diridi həmişə, sağdı həmişə...

sambalı ilə tən gələn sözünü, sərrast düşüncələrini, hədəfə dəyən fikirlərini, hər kəsə nümunə, örnək ola biləcək doğruluğunu, dürüstlüyünü təqdir edirdilər. Fiziki olaraq da çox güclü, atletik cüssəli adam idi; mən ona "bükülməz biləkli, pəhlivan əmioğlu" deyirdim.

Uzun illər ərzində Azərbaycan xalq yaradıcılığının, xüsusilə də aşıq sənətinin tədqiqinə dəyərli töhfələr vermiş, bu sahənin elmi-nəzəri əsaslarının formalaşmasında müstəsna rol oynamış, çoxsaylı elmi əsərləri, monoqrafiyaları və məqalələri ilə aşıq poeziyasının mənşəyini, inkişaf mərhələlərini, janr və sənətkarlıq xüsusiyyətlərini təhlil etmiş Elxan Hüseynqulu oğlu Məmmədlinin doğum günü də (1 yanvar 1946-cı il), ölüm günü də (21 mart 2025-ci il) bayrama təsadüf etdi. Bunda hansısa qeyri-adi əlamət axtarmaq fikrində deyiləm, amma

Amma gəlin razılaşaq, yuxarıda sadalanan müsbət məziyyətlərin bir şəxsiyyətdə cəmlənməsi istər-istəməz adamda belə qənaət yaradır ki, həmin şəxsiyyət təqvimin adi səhifəsində doğula, sıradan bir günündə ölə bilməzdi. Bayram günü dünyasını dəyişməklə bir növ hamıya mesaj verdi ki, çox üzülməyin, xeyirlə şər qardaşdır.

Beləliklə, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədli 79 yaşında dünyasını dəyişdi. Azərbaycan folklorşünaslıq elminə, bir nəsilə, bir ailəyə ağır itki üz verdi.

Elxan Məmmədlinin rəhbərliyi altında Aşıq yaradıcılığı şöbəsində Azərbaycan aşıq yaradıcılığı araşdırılıb, nümunələri toplanılıb, sistemləşdirilib və nəşrə hazırlanıb. Aşıq sənətinin poetik xüsusiyyətlərinin, ideyaməzmun məsələlərinin tədqiqi, ayrı-ayrı aşıqların bədii irsinin toplanması və nəşri, onlar haqqında monoqrafik tədqiqatlar aparılması, "Azərbaycan aşıqları" çoxcildliyinin tərtib və nəşr edilməsi də bu şöbənin əsas vəzifələrindəndir.

Aşıq sənətinin kökləri qədim dövrə gedib çıxsa da, Elxan Məmmədli aşıq sənətinin əsasının XV əsrin sonu XVI əsrin əvvəllərində qoyulduğu qənaətində olub. Əmin idi ki, Azərbaycan aşıq sənəti - sazı yalnız Azərbaycan xalqına məxsusdur və Azərbaycan xalqının istedadı muğama öz töhfəsini verib, muğamın məzmununa təsir

Azərbaycan Respublikası Dövlət Səs Yazıları Arxivinə təqdim edib. Sonradan həmin materiallar elmi-texniki cəhətdən işlənərək rəqəmsal formata keçirilmişdir. Arxiv rəhbərliyi Exlan müəllimin bu addımını "əsl milli qeyrət nümunəsi" adlandırmışdı.

Elxan müəllimin bir folklorşünas kimi yetişməsində, tanınmasında təkcə bir atak imi yox, həm də tanınmış bir pedaqoq kimi əmim Hüseynqulu Məmmədinin böyük rolu olub. Hələ Xalq Şairi, Türk Dünyasının Böyük Söz Fatehi Zəlimxan Yaqub sağlığında Elxan Məmmədlinin 60 illik yubiley gecəsindəki çıxışında demişdi: "Elxan öz səsini elə səslərə qoşdu ki, ona nə ayrılıq, nə də zaman sədd, sərhəd çəkə bilmədi. Türküstanda da, Qafqazda da, İranda da, Türkiyədə də, Şərq aləmində də, Türk dünyasında da, bütövlükdə Şərqi, Qərbi qucaqlayan böyük dünyada da dalğalara qoşuldu Elxanın səsi, şairlərimizin, alimlərimizin, aşıqlarımızın, ozanlarımızın, ustadlarımızın, övliyalarımızın, dədələrimizin təbliğatı ilə məşğul olaola özü də nuraniləşdi, piraniləşdi, gözəlləşdi, duruldu, saflaşdı, oldu saz, oldu aşıq, oldu şair, oldu folklorşünas. Bax, bu mənada, bunun bir səbəbi var, bir də onu yetirən onun doğulduğu ailədi. O ailədi ki, o ailə Borçalı ziyalılarının hamısının ocağı olub Hüseynqulu müəllimə görə"

Ona "Aşıq sənətinin yorulmaz yolçusu" (İsrafil Abbaslı), "Folklorlaşan folklorşünas" (Mahmud Allahmanlı), "Şaman Elxan" (Mürsəl Həkimov), "Dostluğun fövqündə dayanan insan" (Tariyel Abbaslı), "Elin xanı" (Miraslan Bəkirli), "Güney aşıqlarının sevimlisi" (Böyükbəy Ələkbəroğlu), "Ozan kimi" (Həzi Həsənli), "Bir ömürdə iki həyat yaşayan alim" (Elbəyi Cəlaloğlu), "Aşıq sənətinin Məcnunu" (Şöhrət Əfşar), "Folklorumuzun cəfakeşi" (Maşallah Xudubəyli), "Dədə Elxan" (Aşıq Altay Məmmədov) kimi xitablar ediblər.

Pr.M.Allahmanlının redaktoru olduğu, Elxan Məmmədlinin 70 illiyinə həsr olunmuş "Elxan ömrü, saz ömrü" kitabında mənim də müəllifi olduğum, daha əvvəl "Ağır elsən, Borçalıda adın var" kitabımın II cildində getmiş "El üçün yaşayan, el üçün yanan diridir həmişə, sağdır həmişə" başlıqlı oçerkim yer almışdır. Bundan başqa, çoxcildli "El sevəni aləm sevər" kitab-

Söz-söhbətindən şaqraq gülüşü, yerində işlətdiyi zarafat əskik olmazdı. Amma sonuncu dəfə mənə zəng edəndə səsində, danışığında bir kövrəklik duydum. Hətta irad da bildirdim ki, bu nisgil səndə hardandı belə?

Doğrudur, yaşasaydı, hələ çox işlər görə, elmimizə xeyli töhfələr verə bilərdi. Ancaq 100 il yaşamamağının günahını onun özündə görməyə dəyməz. Elxan Məmmədli lap bir əsr də yaşasaydı, dadından doyulacaq ömür deyildi onun yaşadığı. Çünki şərəflə yaşadı, saz ömür yaşadı. O tale verən ömrü elə yaşadı ki, hər an nəfəs dərib arxaya boylanmağa, bir növ özü özünə hesabat verməyə haqqı oldu.

Azərbaycan Milli Elmlər Akademiyasının nekroloqunda qeyd olunduğu kimi, Elxan Məmmədlinin ən böyük mükafatı onu sevənlərin qəlbindəki işıqlı xatirəsidir. O, bu işığlı obrazı saza-sözə bağlı ömrü, məhsuldar elmi fəaliyyəti, şən, zarafatcıl və səmimi xarakteri, təmənnasızlığı, dostcanlılığı və xalq mədəniyyətinə sonsuz sevgisi ilə qazanıb. İnanıram ki, indi Elxanın da ruhu atası Hüseynqulu müəllimin, atam Eyvaz Məmmədovun, vaxtilə bizi bir-birimizə əmanət etmiş böyüklərimizin cənnətməkan ruhlarına qovuşub. Allah rəhmət eləsin.

## *Bükülməz biləkli pələng əmioğlu*

***El üçün yaşadı, el üçün yandı,***
***Elxanın səsinə sənət oyandı.***
***Ənənə oyandı, adət oyandı,***
***Hörməti, izzəti nəhəng əmioğlu.***

***Adınla bağlıdır çox gözəl işlər,***
***Sazın-sözün sehri, gözəlləmələr.***
***Qədrini həmişə el, mahal bilər,***
***"Bəhməni", "Misri", "Cəngi" əmioğlu.***

***Saz ömrü yaşadı, saz ömür sürdü,***
***Hər sözü, söhbəti incidi, dürdü.***
***Kükrəyəndə sanki Arazdı, Kürdü,***
***Bükülməz biləkli pələng əmioğlu.***

***Diridir həmişə, sağdı həmişə,***
***Alnı açıq, üzü ağdı həmişə.***
***Qohumluqda zirvə, dağdı həmişə,***
***Sənətin başında çələng əmioğlu.***

**Səməndər MƏMMƏDOV,**
**Prezident təqaüdçüsü,**
**şair-publisist**